# TEXNİKİ-PEŞƏ TƏHSİLİ SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Hazırda Təhsil Nazirliyinin tabeliyində 106 peşə təhsili müəssisəsi, o cümlədən 45 peşə liseyi, 2 peşə tədris mərkəzi və 59 peşə məktəbi fəaliyyət göstərir. Peşə məktəblərindən 8-i cəzaçəkmə müəssisələrinin tərkibində fəaliyyət göstərir. 2010-cu illə müqayisədə 2 peşə təhsili müəssisəsinin sayı azalmışdır. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə Sumqayıt 2 və 4 nömrəli peşə liseylərinin bazasında Sumqayıt 10 nömrəli peşə liseyi yaradılmış və 11 nömrəli Bakı peşə liseyi Azərbaycan Turizm İnstitutunun tərkibinə verilmişdir.

Fəaliyyət göstərən peşə təhsili müəssisələrinin 45-i komplekslərdə, 39-u uyğunlaşdırılmış binalarda, qalanları isə yararsız binalarda yerləşmişdir. Məlum hadisələrlə əlaqədar 50 №-li Ağdam Peşə Məktəbi Ağdam rayonunun Quzanlı kəndində, 1 №-li Füzuli Peşə Məktəbi Füzuli rayonunun Qayıdış qəsəbəsində, 2 №-li Füzuli Peşə Məktəbi Böyük Bəhmənli kəndində, Laçın Peşə Məktəbi Bərdə şəhərində, Kəlbəcər Peşə Məktəbi Tərtər şəhərində, Cəbrayıl Peşə Məktəbi isə Biləsuvar rayonu 8 nömrəli qaçqın şəhərciyində yerləşən 14 nömrəli orta məktəbin binasında fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 2011-2012-ci dərs ilində ilk peşə-ixtisas təhsili müəssisələrinə ümumilikdə 16895 nəfər qəbul planı müəyyən edilmişdir. Bundan 14190 nəfər dövlət vəsaiti hesabına, 2705 nəfər isə ödənişli əsaslarla müəyyən edilmişdir.

| **İllər** | **Qəbul planı** | **Ümumi şagird sayı** | **Dövlət hesabına** | **Ödənişli əsaslarla** | **İxtisasların sayı** |
|---|---|---|---|---|---|
| 2008-2009 | 14140 | 25184 | 12150 | 1990 | 112 |
| 2009-2010 | 14435 | 25604 | 12350 | 2085 | 132 |
| 2010-2011 | 16165 | 27672 | 14185 | 1980 (+400) | 145 |
| 2011-2012 | 16895 | 27550 | 14190 | 2705 | 96 |

Ümumilikdə, ilk peşə-ixtisas təhsili müəssisələrində 2011\2012-ci tədris ilində 27500 şagirdin təlim-tərbiyəsinə 3700 nəfər mühəndis-pedaqoji heyət cəlb edilmişdir. Dövlət proqramının icrası nəticəsində bir sıra ilk peşə-ixtisas təhsili müəssisələrinin əsaslı təmir edilməsi, onların maddi-texniki bazasının güclənməsi, işəgötürən təşkilatlarla əlaqələrin genişlənməsi və məzunların işlə təmin olunması səviyyəsinin artması nəticəsində əvvəlki illərə nisbətən ilk peşə-ixtisas təhsili müəssisələrinə müraciət edənlərin sayı artmışdır.

2011-2012-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələrinə ümumilikdə 20818 nəfər müraicət etmişdir. Bunlardan 11228 nəfəri ümumi orta təhsil bazasından (53,9%), 8186 nəfəri tam orta təhsil bazasından (39,3%), 1182 nəfəri natamam orta təhsil bazasından (5.7%), 169 nəfər orta-ixtisas təhsil bazasından (0.8%) və 53 nəfəri ali təhsil bazasından (0.3%) qəbul olmuşdur.

Müraciət edənlərdən 13840 nəfəri oğlan, 6978 nəfəri qız olmuşdur. Bunlardan da 7497 nəfəri (36.0%) 14-16 yaş arasında, 7603 nəfəri (36,5%) 17-20 yaş arasında, 4367 nəfəri (21,0%) 21-30 yaş arasında və 1351 nəfəri isə (6,5%) 31 yaşdan yuxarı olmuşdur.

Qeyd edilməlidir ki, müraciət edənlərdən 17280 nəfəri ilk peşə-ixtisas təhsili müəssisələrinə ilk dəfə müraciət etmişlər. Bundan əlavə, müraciət edənlərdən 3150 nəfəri (15,1%) hərbi xidmətdən sonra, 1894 nəfəri (9,1%) ali və ya orta-ixtisas təhsili müəssisələrinə qəbul olunmadıqdan sonra, 1680 nəfəri (8,1%) əvvəllər iş təcrübəsi olanlar, 429 nəfəri isə (2.1%) hazırda işləyənlər olmuşdur.

2011-2012-ci dərs ili üçün ilk peşə-ixtisas təhsili müəssisələrinə müraciət edənlərlə əlaqədar olaraq şöbə tərəfindən hesabat hazırlanmışdır. Hesabatda ilk peşə-ixtisas təhsili müəssisələrinə müraciət səviyyəsi barədə məlumat verilmiş, müxtəlif aspektləri əhatə edən məsələlərlə bağlı təhlillər aparılmışdır.

İlk peşə-ixtisas təhsili sisteminə ayrılan dövlət vəsaitlərinin inkişaf dinamikasının təhlili göstərir ki, əgər 2005-ci ildə 7 mln, 2006-cı ildə 10 mln, 2007-ci ildə 16 mln manat, 2008-ci ildə 20,5 mln manat, 2009-cu ildə 26,2 mln manat, 2010-cu ildə 26,9 mln manat olmuşdursa, 2011-ci ildə bu rəqəm 31.1 mln. manata yüksəlmişdir. Bununla yanaşı, bir təhsilalana çəkilən xərc də artmışdır. Belə ki, əgər 2005-ci ildə bir təhsilalana 328 manat, 2006-cı ildə 457 manat, 2007-ci ildə 740 manat, 2008-ci ildə 903 manat, 2009-cu ildə 1108 manat, 2010-cu ildə 1133 manat olmuşdursa, 2011-ci ildə bu rəqəm 1202 manat təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" qəbul edilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30.07.2007-ci il tarixli əmrinə əsasən dövlət proqramının icrası ilə əlaqədar təsdiq edilmiş Fəaliyyət Planına uyğun işlər davam etdirilir.

Dövlət Proqramının Tədbirlər Planının 5.2-ci bəndinə əsasən təsdiq olunmuş plana əsasən texniki – peşə təhsili müəssisələrinin əsaslı təmiri və yeni binaların inşası işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 239 №-li 17 dekabr, 2010-cu il tarixli Qərarına əsasən İsmayıllı Peşə Tədris Mərkəzi yaradılmışdır.

Bu mərkəz Avropa Komissiyası və Təhsil Nazirliyinin birgə təşəbbüsü olan və Britaniya Şurasının texniki dəstəyi ilə həyata keçirilən layihə əsasında yaradılmışdır. Layihəyə əsasən tədris mərkəzində turizm və xidmət sahəsi üzrə ixtisaslı kadr hazırlığı sisteminin yaradılması nəzərdə tutulmuşdur. Həyata keçirilən layihənin spesifikliyi ondan ibarət idi ki, beynəlxalq və yerli ekspertlər tərəfindən hazırlanan hesabatlar və proqramlar ilk öncə onun istifadəçisi olan yəni işəgötürənə təqdim edilməklə, real sektorun tələbatları nəzərə alınırdı. Hazırlanan proqramların beynəlxalq standartlara uyğunluğu qiymətləndirilərək, kadr hazırlığını həyata keçirə biləcək mühəndis-pedaqoji heyətin təlimi aparılır və müvafiq təlim vəsaitləri ilə təminatı gücləndirdi. Azərbaycan Respublikası Hökümətinin maliyyə dəstəyi nəticəsində isə Təhsil Nazirliyinin Tikinti İdarəsi tərəfindən regionda ən müasir tipli peşə təhsili kompleksi istifadəyə verilir. Beləliklə, respublikada və regionda ən müasir tələblərə cavab verə biləcək İsmayıllı Peşə Tədris Mərkəzinin istifadəyə verilməsi peşə təhsili sistemində yeni bir modelin tətbiq olunmasına imkan yaratmışdır.

Qeyd olunmalıdır ki, 2011-2012-ci tədris ili üçün mərkəzə 160 nəfər dövlət planı müəyyən edilmişdir. Lakin, müraciət edənlərin sayı 400 nəfəri keçmişdir. Bu il məzun olmuş gənclərin əksəriyyəti işlə təmin edilmiş, real işəgötrən təşkilatlardan növbəti tədris ilində məzun olacaq gənclər üçün sifarişlər qəbul olunmuşdur.

2011-ci ildə 6, 10 və 1 nömrəli Bakı peşə məktəbləri əsaslı təmir edilmişdir. Əsaslı təmir işləri "Bakı şəhər kənd və qəsəbələrinin inkişaı üzrə Dövlət Proqramı" çərçivəsində aparılmışdır. Həm bu proqram, həmçinin "Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" çərçivəsində ümumilikdə12 ilk peşə-ixtisas təhsili müəssisəsi əsaslı təmir edilmiş və 2 yeni təhsil müəssisəsi tikilib istifadəyə verilmişdir.

Həmçinin, 2011-ci ildə vaxtilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin balansına verilmiş Quba peşə liseyinin tədris binası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 2011-ci il 399s nömrəli Sərəncamı ilə Təhsil Nazirliyinin balansına qaytarılmışdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Baş İdarəsinin balansında olan, Quba şəhəri, C.Hacınski küçəsi 1, ünvanında 4.3 ha torpaq sahəsində yerləşən köhnə hərbi şəhərciyin bina və qurğuların (4 mərtəbəli yataqxana binası və artezian su quyusu müvəqqəti saxlanılmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin balansına verilməsi regionun əmək bazarına uyğun olaraq kadr təminatının gücləndirilməsinə və o cümlədən dövlət proqramının müvafiq tələblərinin yerinə yetirilməsinə köməklik göstərəcəkdir.

**İlk peşə-ixtisas təhsili müəssisələrinin yataqxana ilə təminatı vəziyyəti.** Hazırda fəaliyyətdə olan ilk peşə ixtisas təhsili müəssisələrindən Bakı şəhərində yerləşən 11 təhsil müəssisəsində (10 lisey və 1 məktəb) 2360 ş/y, Gəncə şəhərində yerləşən 3 təhsil müəssisəsində

(2 lisey və 1 məktəb) 730 ş/y, rayonlarda yerləşən 30 təhsil müəssisəsində (19 lisey və 11 məktəb) 8861 ş/y, İsmayıllı və Qəbələ Peşə Tədris Mərkəzlərində 160 ş/y yataxanalar mövcuddur. Ümumiyyətlə ilk peşə ixtisas təhsili müəssisələrin balansında 12213 ş/y yataxana olsa da bir neçə peşə təhsili müəssisəsinindən başqa onların hamısı məcburi köçkün və qaçqınlarla məskunlaşdırılmışdır. Yalnız İsmayıllı və Qəbələ Peşə Tədris Mərkəzlərində, 5 №-li Bakı Peşə Liseyinin balansında olan yataxanalar 100% təhsil müəssisəsinin istifadəsindədir. Bu və bir neçə digər peşə təhsili müəssisənin yataxanalarında cəmi 346 şagird qalmaqdadır.

Ümumiyyətlə yataqxanası olmayan 52 ilk peşə ixtisas təhsili müəssisəsi mövcuddur ki, onların siyahısı aşağıda göstərilmişdir (8 peşə məktəbi cəzaçəkmə müəssisələrində yerləşdiyi üçün onlar bu siyahıya daxil edilməmişdir):

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|---|---|
| **1.** | 1 №-li Bakı PL | **18.** | Ordubad PM | **35.** | Şabran PM |
| **2.** | 4 №-li Bakı PL | **19.** | Culfa PM | **36.** | Ağdam 4 №-li PM |
| **3.** | 6 №-li Bakı PL | **20.** | Gəncə 2 №-li PL | **37.** | Ağdaş PM |
| **4.** | 7 №-li Bakı PL | **21.** | Gəncə 2 №-li PM | **38.** | Masallı PM |
| **5.** | 11 №-li Bakı PL | **22.** | Gəncə 3 №-li PM | **39.** | Balakən 1 №-li PM |
| **6.** | 13 №-li Bakı PL | **23.** | Sumqayıt 1 №-li PL | **40.** | Balakən 2 №-li PM |
| **7.** | 15 №-li Bakı PL | **24.** | Sumqayıt 3 №-li PL | **41.** | Qəbələ PM |
| **8.** | 17 №-li Bakı PL | **25.** | Sumqayıt 10 №-li PL | **42.** | Neftçala PM |
| **9.** | 2 №-li Bakı PM | **26.** | Şirvan PL | **43.** | Yevlax PM |
| **10.** | 3 №-li Bakı PM | **27.** | Gədəbəy PL | **44.** | Ağstafa PM |
| **11.** | 5 №-li Bakı PM | **28.** | Xızı PM | **45.** | Zaqatala PM |
| **12.** | 6 №-li Bakı PM | **29.** | Siyəzən PM | **46.** | Naftalan PM |
| **13.** | 7 №-li Bakı PM | **30.** | Ağdam 2 №-li PM | **47.** | Yardımlı PM |
| **14.** | 10 №-li Bakı PM | **31.** | Şəki 1 №-li PM | **48.** | Laçın PM |
| **15.** | 12 №-li Bakı PM | **32.** | Şəki 2 №-li PM | **49.** | Füzulu 1 №-li PM |
| **16.** | 13 №-li Bakı PM | **33.** | Lerik PM | **50.** | Füzulu 2 №-li PM |
| **17.** | 14 №-li Bakı PM | **34.** | Göygöl PM | **51.** | Kəlbəcər PM |
|  |  |  |  | **52.** | Cəbrayıl PM |

Yataqxanası mövcud olan 47 ilk peşə-ixtisas təhsili müəssisəsində şagird tutumu və orada yaşayan şagirdlərin sayı barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir:

| **Sıra №-si** | **İlk peşə ixtisas təhsili müəssisəsinin adı** | **Yataqxananın tutumu ş/y** | **Şagirdlərin sayı** | **Sıra №-si** | **İlk peşə ixtisas təhsili müəssisəsinin adı** | **Yataqxananın tutumu ş/y** | **Şagirdlərin sayı** |
|---|---|---|---|---|---|---|---|
| **1** | 2 №-li Bakı PL | 300 |  | **25** | Saatlı PL | 100 | 10 |
| **2** | 3 №-li Bakı PL | 100 |  | **26** | Lənkəran PL | 240 |  |
| **3** | 5 №-li Bakı PL | 42 | 42 | **27** | Kürdəmir PL | 408 |  |
| **4** | 8 №-li Bakı PL | 420 | 18 | **28** | Qazax PL | 400 |  |
| **5** | 9 №-li Bakı PL | 400 |  | **29** | Şamaxı PL | 460 |  |
| **6** | 12 №-li Bakı PL | 250 |  | **30** | Zərdab PL | 325 |  |
| **7** | 14№-li Bakı PL | 150 |  | **31** | Biləsuvar PL | 240 |  |
| **8** | 16№-li Bakı PL | 500 |  | **32** | Tovuz PL | 120 |  |
| **9** | 18№-li Bakı PL | 52 | 30 | **33** | Qax PL | 200 | 55 |
| **10** | Az.Dövlət Dəmir yolu liseyi | 100 |  | **34** | Sabirabad PL | 840 |  |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **11** | 1№-li Bakı PM | 46 | | **35** | Cəlilabad PM | 205 | |
| **12** | Şərur PL | 102 | | **36** | Mingəçevir PM | 150 | |
| **13** | Gəncə 1 №-li PL | 180 | | **37** | Daşkəsən PM | 50 | |
| **14** | Gəncə 3 №-li PL | 250 | | **38** | Tərtər PM | 260 | 75 |
| **15** | Gəncə 1 №-li PM | 300 | | **39** | Goranboy PM | 240 | |
| **16** | Salyan PL | 150 | | **40** | İmişli PM | 50 | |
| **17** | Xaçmaz PL | 220 | | **41** | İsmayıllı PTM | 80 | |
| **18** | Abşeron-Binə PL | 400 | | **42** | Oğuz PM | 100 | |
| **19** | Abşeron-Ceyranbatan PL | 720 | | **43** | Beyləqan PM | 104 | |
| **20** | Quba PL | 65 | 65 | **44** | Ağcəbədi PM | 360 | |
| **21** | Bərdə PL | 480 | | **45** | Xaçmaz PM | 600 | |
| **22** | Göyçay PL | 394 | | **46** | Quba xüsusi peşə məktəbi | 50 | 22 |
| **23** | Şəmkir PL | 390 | | **47** | Qəbələ Turizm Mərkəzi | 80 | 29 |
| **24** | Cəlilabad PL | 540 | | | Cəmi | 12213 | 346 |

**İlk peşə-ixtisas təhsili müəssisələrində istilik sisteminin vəziyyəti barədə məlumat.** Bakı şəhərində yerləşən ilk peşə ixtisas təhsili müəssisələrindən 14-də (10 lisey və 4 məktəb), Gəncə 3 №-li Peşə Liseyində, İsmayıllı və Qəbələ Peşə Tədris Mərkəzlərində, habelə Cəbrayıl Peşə Məktəbində işlək vəziyyətdə olan mərkəzləşdirilmiş istilik sistemləri mövcuddur.

İşlək vəziyyətdə olan mərkəzləşdirilmiş istilik sistemləri olan peşə təhsili müəssisələrinin siyahısı aşağıdakılardır:

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|
| **1** | 1 №-li Bakı PL | **10** | 18№-li Bakı PL |
| **2** | 4 №-li Bakı PL | **11** | 6 №-li Bakı PM |
| **3** | 7 №-li Bakı PL | **12** | 10№-li Bakı PM |
| **4** | 11 №-li Bakı PL | **13** | 12№-li Bakı PM |
| **5** | 12 №-li Bakı PL | **14** | 13№-li Bakı PM |
| **6** | 13 №-li Bakı PL | **15** | Gəncə 3 №-li PL |
| **7** | 14№-li Bakı PL | **16** | Cəbrayıl PM |
| **8** | 16№-li Bakı PL | **17** | İsmayıllı PTM |
| **9** | 17№-li Bakı PL | **18** | Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi |

Mərkəzləşdirilmiş istilik sistemi olmayan və ya işlək vəziyyətdə olmayan ilk peşə ixtisas təhsili müəssisələrinin siyahısı (8 peşə məktəbi cəzaçəkmə müəssisələrində yerləşdiyi üçün onlar bu siyahıya daxil edilməmişdir):

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|---|---|
| **1** | 2 №-li Bakı PL | **28** | Abşeron Binə PL | **55** | Daşkəsən PM |
| **2** | 3 №-li Bakı PL | **29** | Abşeron Ceyranbatan PL | **56** | Tərtər PM |
| **3** | 5 №-li Bakı PL | **30** | Quba PL | **57** | Göygöl PM |
| **4** | 6 №-li Bakı PL | **31** | Bərdə PL | **58** | Goranboy PM |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5** | 8 №-li Bakı PL | **32** | Göyçay PL | **59** | Şabran PM |
| **6** | 9 №-li Bakı PL | **33** | Şəmkir PL | **60** | İmişli 1 №-li PM |
| **7** | 15№-li Bakı PL | **34** | Cəlilabad PL | **61** | Ağdam 4 №-li PM |
| **8** | Az.Döv.Dəmir yolu liseyi | **35** | Saatlı PL | **62** | Ağdaş PM |
| **9** | 1№-li Bakı PM | **36** | Lənkəran PL | **63** | Masallı PM |
| **10** | 2 №-li Bakı PM | **37** | Kürdəmir PL | **64** | Balakən 1 №-li PM |
| **11** | 3 №-li Bakı PM | **38** | Qazax PL | **65** | Balakən 2 №-liPM |
| **12** | 5 №-li Bakı PM | **39** | Şamaxı PL | **66** | Qəbələ PM |
| **13** | 7 №-li Bakı PM | **40** | Zərdab PL | **67** | Oğuz PM |
| **14** | 14№-li Bakı PM | **41** | Biləsuvar PL | **68** | Neftçala PM |
| **15** | Şərur PL | **42** | Şirvan PL | **69** | Yevlax PM |
| **16** | Ordubad PM | **43** | Tovuz PL | **70** | Ağstafa PM |
| **17** | Culfa PM | **44** | Qax PL | **71** | Zaqatala PM |
| **18** | Gəncə 1 №-li PL | **45** | Gədəbəy PL | **72** | Naftalan PM |
| **19** | Gəncə 2 №-li PL | **46** | Sabirabad PL | **73** | Beyləqan PM |
| **20** | Gəncə 1 №-li PM | **47** | Cəlilabad PM | **74** | Yardımlı PM |
| **21** | Gəncə 2 №-li PM | **48** | Xızı PM | **75** | Ağcəbədi PM |
| **22** | Gəncə 3 №-li PM | **49** | Siyəzən PM | **76** | Laçın PM |
| **23** | Sumqayıt 1 №-li PL | **50** | Mingəçevir 1№-li PM | **77** | Xaçmaz PM |
| **24** | Sumqayıt 3 №-li PL | **51** | Ağdam 2 №-li PM | **78** | Füzuli 2 №-li PM |
| **25** | Sumqayıt 10 №-li PL | **52** | Şəki 1 №-li PM | **79** | Kəlbəcər PM |
| **26** | Salyan PL | **53** | Şəki 2 №-li PM | **80** | Füzuli 1№-li PM |
| **27** | Xaçmaz PL | **54** | Lerik PM | **81** | Quba xüsusi peşə məktəbi |

**İlk peşə-ixtisas təhsili müəssisələrinin idman meydançası və idman zalları ilə təminatı barədə məlumat.** Bakı şəhərində yerləşən 20 peşə təhsili müəssisəsində 22 idman zalı və 16 peşə təhsili müəssisəsindəisə 16 idman meydançası, Gəncə şəhərində yerləşən 4 peşə təhsili müəssisəsində 4 idman zalı və 4 peşə təhsili müəssisəsində isə 5 idman meydançası, Sumqayıt şəhərində yerləşən 3 peşə təhsili liseyində 3 idman zalı və 3 idman meydançası, rayonlarda yerləşən 57 peşə təhsili müəssisələrində 31 idman zalı və 38 idman meydançası, İsmayıllı və Qəbələ Peşə Tədris Mərkəzlərində 2 idman zalı və 3 idman meydançası mövcuddur.

Aşağıda idman zalı və həm də idman meydançası olmayan ilk peşə ixtisas təhsili müəssisələrinin siyahısı göstərilmişdir (8 peşə məktəbi cəzaçəkmə müəssisələrində yerləşdiyi üçün onlar bu siyahıya daxil edilməmişdir):

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|
| **1** | 15№-li Bakı PL | **11** | Qax PL |
| **2** | 18№-li Bakı PL | **12** | Daşkəsən PM |
| **3** | 3 №-li Bakı PM | **13** | Şabran PM |
| **4** | 6 №-li Bakı PM | **14** | Ağdaş PM |
| **5** | Şərur PL | **15** | Qəbələ PM |
| **6** | Ordubad PM | **16** | Ağstafa PM |
| **7** | Culfa PM | **17** | Zaqatala PM |
| **8** | Gəncə 2 №-li PM | **18** | Yardımlı PM |
| **9** | Qazax PL | **19** | Kəlbəcər PM |
| **10** | Şirvan PL | **20** | Cəbrayıl PM |

**İdman zalı olan, idman meydançası olmayan ilk peşə ixtisas təhsili müəssisələrinin siyahısı aşağıda göstərilmişdir:**

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|
| **1** | 1 №-li Bakı PL | **9** | Gəncə 1 №-li PM |
| **2** | 2 №-li Bakı PL | **10** | Sumqayıt 3 №-li PL |
| **3** | 3 №-li Bakı PL | **11** | Abşeron Binə PL |
| **4** | 5 №-li Bakı PL | **12** | Kürdəmir PL |
| **5** | 17№-li Bakı PL | **13** | Şamaxı PL |
| **6** | Az.Döv.Dəmir yolu liseyi | **14** | Biləsuvar PL |
| **7** | 12№-li Bakı PM | **15** | Xızı PM |
| **8** | 13№-li Bakı PM | **16** | Şəki 1 №-li PM |
| | | **17** | Xaçmaz PM |

**İdman zalı olan, idman meydançası olmayan ilk peşə ixtisas təhsili müəssisələrinin siyahısı aşağıda göstərilmişdir:**

| **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** | **Sıra №-si** | **İlk Peşə ixtisas təhsili müəssisəsinin adı** |
|---|---|---|---|
| **1** | 1 №-li Bakı PM | **10** | Lerik PM |
| **2** | 5 №-li Bakı PM | **11** | İmişli PM |
| **3** | 7 №-li Bakı PM | **12** | Ağdam 4 №-li PM |
| **4** | 10 №-li Bakı PM | **13** | Masallı PM |
| **5** | Gəncə 3 №-li PM | **14** | Balakən 1 №-li PM |
| **6** | Quba PL | **15** | Balakən 2 №-li PM |
| **7** | Zərdab PL | **16** | Neftçala PM |
| **8** | Ağdam 2 №-li PM | **17** | Naftalan PM |
| **9** | Laçın PM | **18** | Quba xüsusi peşə məktəbi |
| | | **19** | Oğuz PM |
| | | | |

Dövlət Proqramının 5.4-cü bəndin "Texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, müasir tipli və profilli peşə təhsili müəssisələrinin yaradılması" icrası ilə əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 99 №-li 22 iyun 2011-ci il tarixli Qərarı ilə Sumqayıt 2 və 4 nömrəli peşə liseylərinin birləşdirilməsi və onların bazasında Sumqayıt 10 nömrəli Peşə Liseyi yaradılmışdır.

Qeyd edilən peşə təhsili müəssisələrinin birləşdirilməsi nəticəsində hər iki müəssisədə oxşar ixtisasların tədrisinin azaldılması və onların əvəzinə yeni ixtisaslar üzrə kadr hazırlığının həyata keçirilməsi mümkün olmuşdur. Bu isə əlavə maliyyə vəsaiti sərf etmədən kadr hazırlığı şəbəkəsinin genişlənməsinə imkan yaratmışdır.

Fəaliyyət Planının 5.17-ci bəndinin icrasını təmin etmək məqsədilə 2011-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələri üçün dərsliklərin hazırlanması prosesi davam etmişdir. Dövlət sifarişi ilə çap edilən dərsliklərlə yanaşı şöbə müxtəlif yerli və beynəlxalq qeyri-hökümət təşkilatları ilə birlikdə həyata keçirən layihələr çərçivəsində də müasir məzmunlu dərsliklərin hazırlanmasına önəm vermişdir. Ümumilikdə 2011-ci ildə 15 adda dərslik hazırlanmışdır.

| **Sıra №-si** | **Dərsliklərin adı** | **Sayı** |
|---|---|---|
| **1.** | Elektrotexnika | 2500 |
| **2.** | Çertyojun oxunması | 2000 |

| | | |
|---|---|---|
| **3.** | Dülgər-xarrat işi | 1000 |
| **4.** | Bənna, suvaq işi | 1000 |
| **5.** | Nəzarət-ölçü cihazları | 1500 |
| **6.** | Bərbər işi | 1500 |
| **7.** | Xalçaçı | 1500 |
| **8.** | Tikiş istehsalının texnologiyası | 1300 |
| **9.** | Geyimin modelləşdirilməsi və konstruksiyalaşdırılması | 1300 |
| **10.** | Avtomobil çilingəri, tənəkəçi | 1000 |

Azərbaycan Respublikası Hökümıəti və Heydər Əliyev Fondu ilə "YUNESKO" arasında Azərbaycanda peşə təhsilinin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsi haqqında 18.06.2007-ci il tarixli Sazişə əsasən həyata keçirilən lahiyə çərçivəsində "Mehmanxana inzibatçısı" və "Fərdi Kompüter Operatoru" ixtisasları üzrə yeni kurikulumlar hazırlanmışdır. Həmin kurikulumlar əsasında "Mehmanxana inzibatçısı" və "Fərdi Kompüter Operatoru" ixtisasları üzrə Müəllim üçün, Şagird üçün və Qiymətləndirmə üzrə Metodik vəsaitlər hazırlanmışdır. Qeyd edilməlidir ki, layihənin həyta keçirilməsinə Yaponiya köməyi böyü dəstək vermiş və maliyyə vəsaiti ayırmışdır.

"Dünyaya Baxış" təkilatı ilə birlikdə həyata keçirilən "Gənclərin inkişafı və məşğulluq şəbəkəsinin yaradılması" layihəsi çərçivəsində Azərbaycanda texniki-peşə təhsili və gənclərin sahibkarlıq fəaliyyətinin inkişafına dəstəyin göstərilməsi ilə yanaşı müəyyən ixtisaslar üzrə yeni məzmunlu tədris vəsaitlərinin hazırlanması da nəzərdə tutulmuşdur. Belə ki, layihə çərçivəsində "Elektrik qaz qaynaqçısı" və "Təmirçi-çilingər" ixtisasları üzrə Təhsilalanlar və Müəllimlər üçün Metodiki vəsaitlər hazırlanmış, bu ixtisasları tədris edən bir qrup mühəndis-pedaqoji heyət üçün təlimlər keçirilmişdir. Lahiyə çərçivəsində 2010-cu ildə işçi qrupunun Almaniyaya tədris səfəri təşkil edilmişdir. Həmçinin, lahiyə çərçivəsində pilot olaraq müəyyən edilmiş 16 nömrəli Bakı peşə liseyi və 14 nömrəli Bakı peşə məktəbinin maddi-texniki bazası möhkəmləndiriliş və həmin peşə təhsili müəssisələrinin internet səhifələri yaradılmışdır.

Dərsliklərin hazırlanmasına peşə təhsili müəssisələri də fəal qoşulmuşdur. Buna misal olaraq Azərbaycan Dövlət Dəmir Yolu liseyinin direktoru F.Abbasovun dəmir yolu ümün ixtisaslı kadrların hazırlanmasında tələb olunan "Avtotormoz" adlı dərsliyin nəşridir. Bundan əlavə, hazırda 4 və 18 nömrəli Bakı peşə liseylərinin kollektivi tərəfindən də müxtəlif ixtisaslar üzrə dərsliklər hazırlanmaqdadır.

İlk peşə-ixtisas təhsilinin əhatə dairəsinin genişlənməsi, həmçinin, iş və təhsildən ayrılmamaq şərtilə peşə almaq imkanının şəraitinin artırılması məqsədilə Təhsil Nazirliyi elektron nəşrlərin sayını artmaqdadır. Belə ki, dövlət sifarişi ilə hazırlanan dərsliklərin elektron variantları hazırlnaraq www.avel.edu.az təhsil portalında yerləşdirilmişdir. Portala elektron dərsliklər, video dərslər, animasiya, özünüqiymətləndirmə vasitələri (test, suallar, tapşırıqlar) və s. portala əlavə edilmişdir. Gələcəkdə həmin portal vasitəsilə elektron peşə təhsili almaq imkanı da əldə etmək olacaqdır.

Fəaliyyət Planının 5.16-cı bəndinə əsasən 2010-cu ildən başlayaraq Təhsil Nazirliyinin sifarişi əsasında Milli Məhsuldarlıq və Rəqabətədavamlılıq Mərkəzi tərəfindən regional inkişaf istiqamətlərində və yeni yaranacaq istehsal və xidmət müəssisələrinin tələbatına uyğun peşə-ixtisas kadrlarının hazırlanması proqnozu işlənməkdədir. Bununla əlaqədar olaraq 2010-cu ildə 3 iqtisadi rayonda (Quba-Xaçmaz, Lənkəran və Şəki-Zaqatala) əmək bazarının tələbatının öyrənilməsinə başlanılmışdır. Bu il isə yenə mərkəz tərəfindən daha 2 iqtisadi rayonda (Aran və Dağlıq Şirvan) analoji tədqiqatların aparılması üçün Təhsil Nazirliyi tərəfindən sifariş verilmişdir.

Əmək bazarının öyrənilməsində məqsəd regionlarda fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili müəssisələrinin mövcud vəziyyətini, əmək bazarının tələblərinə müvafiq kadr hazırlığı sisteminin təşkili vəziyyətini və gələcək inkişaf istiqamətlərini müəyyən etməkdir. Nəzərdə tutulmuş tədbirlər planına müvafiq olaraq işəgötürənlər, dövlət, qeyri-dövlət təşkilatları, valideyn və şagirdlərlə aparılan sorğuların nəticələri ümumiləşdirilərək həm regionda, həm də Bakı

şəhərində ictimai müzakirələrin təşkil edilməsi və əldə edilmiş nəticələr barədə Azərbaycan Respublikası Hökumətinə hesabatın hazırlanması planlaşdırılmışdır.

Əldə edilmiş məlumata əsasən cari ildə ilk peşə-ixtisas təhsili müəssisələrini 12637 nəfər bitirmişdir. Bunlardan 11081 nəfəri təhsillərini dövlət hesabına, 1551 nəfəri isə ödənişli əsaslarla başa vurmuşlar. Onlardan 4678 nəfəri işlə təmin edilmişdir.

Peşə yönümü işinin yaxşılaşdırılması, regionların əmək bazarının tələbatını öyrənmək, kadr hazırlığına dair şagird qəbulu planının optimallaşdırılması məqsədilə 2010-cu ildən başlayaraq yerlərdən məzunların işlə təmin olunmasına dair məlumatlar toplanır. Əldə edilən məlumatlar araşdırılaraq müvafiq tədbirlər həyata keçirilir.

2010-cu ildə məzun olan 10602 nəfərdən 3670 nəfəri, yəni 34.62%-i işlə təmin olunmuş, 30.04%-i, yəni 3185 nəfəri həqiqi hərbi xidmətə çağırılmış, 135 nəfəri təhsillərinin davam etdirmişdir. Nəticə etibarı ilə 2010-cu ildə məzunların məşğulluq faizi 65.93% təşkil etmişdir.

2011-cu ildə məzun olan 12637 nəfərdən 87.7%-i, yəni 11081 nəfəri dövlət hesabına, 12.3%- isə, yəni 1551 nəfəri ödənişli əsaslarla təhsil almışlar.

2011-ci ildəki məzunlardan 37%-i, 4678 nəfəri işlə təmin olunmuş, 30.3%-i, yəni 3834 nəfəri həqiqi hərbi xidmətə çağırılmış, 375 nəfəri təhsillərinin davam etdirmişdir. Nəticə etibarı ilə 2011-cu ildə məzunların məşğulluq faizi 70.3% təşkil etmişdir.

Ötən il işlə təmin olunanların sayı 3670 nəfər olunmuşdursa, 2011-ci ildə bu rəqəm artaraq 4678 nəfər olmuşdur. 2010-cu ildə məzunların 34.62%-i işlə təmin olunmuşdursa, carı ildə bu göstəricil 37%-ə yüksəlmişdir.

Məzunlardan təhsillərini davam etdirənlərin sayında da artım müşayiət edilmişdir. Belə ki, ötən il məzunlardan 135 nəfəri təhsillərini davam etdirmişdirsə, carı ildə bu rəqəm 375 nəfərə yüksəlmişdir.

Nəticə etibarı ilə, ötən il məzunların məşğulluq faizi 65.93% olmuşdursa, bu il bu göstərici 70.3%-ə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İ.Əliyevin 3 iyul 2007-ci il tarixli 2282 nömrəli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"nın 5.11-ci bəndinin "Texniki peşə təhsilini əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədi ilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma klassifikatorunun hazırlanması" və "Təhsil haqqında"Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə " Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli 178 nömrəli Qərarı ilə "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" təsdiq edilmişdir.

"İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" ilk peşə-ixtisas təhsilinin dövlət standartlarının mühüm tərkib hissəsi kimi Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 22 dekabr 2008-ci il tarixli 155 nömrəli və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 14 noyabr 2008-ci il tarixli kollegiya qərarı ilə təsdiq edilmiş "İqtisadi fəaliyyət təsnifatı", müvafiq dövlət və qeyri-dövlət müəssisə və təşkilatların təklifləri əsasında hazırlanmışdır.

"İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" sənədində "Sənətşünaslıq, mədəniyyət və incəsənət", "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə", "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı", "Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları","Metallurgiya, maşınqayırma və metal emalı", "Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri", "Kimyəvi və biokimyəvi texnologiya", "İlkin tələbat və ərzaq mallarının texnologiyası" və "İnşaat və arxitektura" kimi 9 peşə istiqamətindən, 220 ixtisas qrupundan və 720 ixtisasdan ibarətdir.

"İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"na işəgötürənlərin təklifi və əmək bazarının tələblərinə uyğun olaraq ***idarə və müəssisələrin təklifləri daxil edilmiş, 193 ixtisasın adında dəyişiklik aparılmışdır. Son illərdə kadr hazırlığı üçün işəgötürənlər tərəfindən sifariş verilən, əmək bazarının tələblərini ödəyən və insanların öyrənməyə həvəs göstərdiyi bir sıra ixtisaslar (məsələn,dərzi bərbər, xalça və xalça məmulatlarının bərpaçısı, memarlıq hissələrinin modelləşdirilməsi və yapılması, telekommunikasiyada kompüter***

***texnikasının istismarı üzrə operator və s.) yeni təsnifatda saxlanılmışdır.*** Azərbaycan Respublikasının Təhsil naziri M.Mərdanovun peşə təhsili müəssisələrinin rəhbərlərinə ünvanlandığı 29.03.2010-cu il tarixli məktubda məzunların gələcək fəaliyyəti barədə məlumatların noyabr ayının 30-dan gec olmayaraq nazirliyə məlumat verilməsi tələb olunmuşdur.

Məktubun icrasını təmin etmək məqsədilə peşə təhsili müəssisələrindən toplanılmış məlumat əlavə olunur (Əlavə 1).

Dövlət Proqramının icrası nəticəsində ilk peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazası genişlənmişdir. Belə ki, əgər 2006-cı ildə ilk peşə-ixtisas təhsili müəssisələrində cəmi 129 ədəd kompüter avadanlığı vardırsa, bu rəqəm 2010-cu ildə 600-ə yaxınlaşmışdır. Eyni ilə, elektrotexniki və termiki avadanlıqlar, elektrik qaynaq aparatı, tikiş avadanlıqları, çilingər məngənəsi və s. avadanlıqların sayı artmışdır. Lakin metalkəsən, torna, burğu, ağac emal edən dəzgahlar və s. avadanlıqların sayı xeyli azalmışdır. Xüsusən, kənd təsərrüfatı sahəsi üzrə maşın və avadanlıqlar bazası mənəvi və fiziki baxımdan xeyli köhnəlmişdir.

**İlk peşə-ixtisas təhsili müəssisələrinin kompüterlə təchizat vəziyyəti.** Hazırda mövcud olan ilk peşə ixtisas təhsili müəssisələrindən 113 kompüter sinifləri yaradılmış və onların istifadəsində cəmi 911 ədəd kompüter mövcuddur.

İllər üzrə ilk peşə-ixtisas təhsili müəssisələrinin kompüterlə təchizatıcədvəldə göstərilmişdir:

| **İllər** | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| **Sayı** | 129 | 174 | 194 | 523 | 587 | 911 |

**Digər texnika və avadanlıqlar barədə məlumat**

| **İllər** | **Metal-kəsən dəzgah-lar** | **Torna dəzgah-lar** | **Burğu dəzgah-lar** | **Ağac emal edən dəzgah-lar** | **Elek-trik qaynaq aparatı** | **Tikiş ava-danlığı** | **Çilingər məngə-nəsi** | **Kompüter avadanlıq-ları** | **Qaz Qay-nağı apa-ratı** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2006** | 444 | 123 | 138 | 143 | 200 | 389 | 722 | 239 | 9 |
| **2007** | 310 | 92 | 76 | 133 | 195 | 506 | 482 | 253 | 5 |
| **2008** | 310 | 92 | 76 | 133 | 195 | 506 | 482 | 283 | 5 |
| **2009** | 260 | 82 | 120 | 105 | 222 | 679 | 731 | 838 | 2 |
| **2010** | 218 | 79 | 84 | 99 | 102 | 579 | 473 | 851 | 4 |

Dövlət proqramının icrası nəticəsində ilk peşə-ixtisas təhsili müəssisələrinin büdcədənkənar vəsaitlərinin formalaşmasında da müəyyən irəliləyişlər əldə edilmişdir. Belə ki, ilk peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, ödənişli əsaslarla təhsil alanların sayının artması və təsərrüfatların inkişaf etməsi nəticəsində təhsil müəssisələrinin büdcədənkənar vəsaitləri 2006-cı illə müqayisədə 2010-cu ilin əvvəlində təqribən 3 dəfə artmışdır.

| **Sıra** | **İllər üzrə** | **Büdcədənkənar gəlirin mənbəyi** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **Emalatxanadan** | **Təlim təsərrüfatında** | **Ödənişli qəbuldan** | **İstehsalatdan** | **Cəmi** |
| **1** | 2006 | 46900 | 31168 | 78971 | 5166 | 162205 |
| **2** | 2007 | 48685 | 59216 | 176141 | 8731 | 292773 |
| **3** | 2008 | 54000 | 101532 | 180000 | 6000 | 341532 |
| **4** | 2010 | 80909 | 48204 | 360112 | 16300 | 505525 |
| **5** | **2011** | **49909,10** | **45394,20** | **396312,38** | **16921,37** | **508537,05** |

Təhsil Nazirliyi ilə Almaniyanın KNAUF şirkəti arasında yaranmış əməkdaşlıq əlaqələri nəticəsində şirkətin təşəbbüsü ilə respublikada ilkin olaraq 3 peşə təhsili müəssisəsində bir sıra tikinti peşələri üzrə kadrların hazırlanması üzrə birgə fəaliyyət göstərilməsi nəzərdə tutulmuşdur. Belə ki, əldə olunmuş razılaşmaya əsasən 4, 18 nömrəli Bakı peşə liseylərində, o cümlədən 3 nömrəli Gəncə peşə liseyində "Suvaqçı" peşəsi üzrə müasir təlim otaqları, əyani və dərs vəsaitləri ilə təmin edilməsi, müəllim və istehsalat təlimi ustalarının hazırlanması, şagirdlərin müvafiq iş yerlərində istehsalat təcrübəsi keçməsi və müvəffəqiyyət qazanmış məzunların iş yerləri ilə təmin edilməsi müzakirə edilmişdir.

"KNAUF" şirkəti ilə əməkdaşlıq layihəsi çərçivəsində 5 dekabr 2011-ci ildə yaradılması planlaşdırılan tədris mərkəzlərindən birincisi 4 nömrəli Bakı peşə liseyində açılmışdır. Mərkəz müasir avadanlıqlarla, əyani və tədris vəsaitləri ilə təmin edilmiş, həmçinin şirkətin dəstəyi ilə Ukraynada təcrübə keçmiş usta kadr hazırlığına cəlb edilmişdir.

Mərkəzdə peşə təhsili müəssisəsinin şagirdləri ilə yanaşı, həmçinin tikinti sahəsində fəaliyyət göstərən firma və şirkətlərin də nümayəndələri üçün qısamüddətli kursların təşkil edilməsi nəzərdə tutulmuşdur. Bu mərkəz gələcəkdə digər peşə təhsili müəssisələrində də "Süvaqçı" peşəsinin tədris edilməsi üçün müəllim və ustalarında hazırlanmasına imkan yaradacaq. Belə ki, mərkəzdə təcrübə keçmiç mütəxəssislər müvafiq peşənin tədrisi ilə əlaqədar olaraq lazımi bilik və bacarıqlarla təmin ediləcəkdir.

Təhsil Nazirliyi ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə və əmək bazarının tələblərinə müvafiq kadrların hazırlanması üçün birgə fəaliyyət göstərmək üçün "Billur", "Kür", "Azal", Azərbaycan Sənaye Bankı, Bakı Tikiş Evi, "Azərenerji" Səhmdar Cəmiyyəti və s. şirkətlərlə əlaqə yaradaraq, onları bu sahədə həyata keçirilən lahiyələrə cəlb etməyə çalışır.

Türkiyə Respublikası Milli Təhsil Nazirliyi tərəfindən "Sənaye avtomatlaşdırma Texnologiyaları Sahəsində Müəllim Tədrisi" layihəsi çərçivəsində Türkiyənin İzmir şəhərində keçirilən seminarda iştirak məqsədi ilə Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili sistemində çalışan 9 nəfər mühəndis-pedaqoji heyət 02-28 may 2011-ci il tarixlərində Türkiyəyə ezam olunmuşdur. Artıq ənənəvi alan bu təcrübə mübadiləsi nəticəsində son 3 ildə 30-a yaxın mühəndis-pedaqoji heyət Türkiyədə təcrübə keçmişlər.

Ümumiyyətlə, son zamanlar ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji heyətin xarici ölkələrdə təlim keçməsi təcrübəsi geniş yayılmaqdadır. Buna misal olaraq İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRİC) ilə yaradılan əlaqələri də göstərmək olaraq. Belə ki, mərkəzin təşəbbüsü ilə bu il təşkil olunan təlim kurslarında ilk peşə ixtisas təhsili müəssisələrinin 7 nəfər mühəndis-pedaqoji heyəti 23-29 oktyabr 2011-ci il tarixlərində Türkiyənin İstanbul şəhərinə ezam olunmuşlar.

"Təhsil haqqında" Qanuna müvafiq olaraq "İlk Peşə-İxtisas Təhsili Müəssisələrinin Nümunəvi Nizamnaməsi" hazırlanmış, müvafiq dövlət qurumları ilə razılaşdırılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Avropa Təlim Fondu ilə birlikdə həyata keçirilən layihələrin sayı artmaqdadır. Belə ki, Milli İxtisas Çərçivəsinin, "Təhsil haqqında" Qanuna müvafiq olaraq ilk peşə-ixtisas təhsili haqqında qanunun və Torino prosesinə müvafiq olaraq hesabatların hazırlanması birgə əməkdaşlıq nəticəsində yaranmışdır. İlk peşə-ixtisas təhsili hqqında qanunun hazırlanmasına yerli mütəxəssislərlə yanaşı həmçinin 2 beynəlxalq ekspert də cəlb edilmişdir.

2011-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələrinə mühəndis-pedaqoji heyətin qəbulunda müəyyn dəyişikliklər edilmişdir. Belə ki, cari ildən başlayaraq ilk dəfə olaraq mərkəzləşdirilmiş imtahan vasitəsilə mühəndis-pedaqoji heyətin qəbulu həyata keçirilmişdir.

Bununla əlaqədar olaraq, ilk peşə-ixtisas təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətə dair tələbatı öyrənilmiş və sistemləşdirilmişdir. Bundan əlavə, əmək məcəlləsində edilmiş müvafiq dəyişikliklərə əsasən 65 yaşdan yuxarı olan heyətlə bağlı məlumat bazası formalaşmış və ehtiyaclar müəyyənləşmişdir.

Təhsil müəssisələrinin sifarişlərinə əsasən 44 ixtisas fənn məllimi və 72 istehsalat təlimi ustası vakansiya yerlərinə "Azərbaycan müəllimi" qəzetində və nazirliyin internet səhifəsində

müvafiq məlumat yerləşdirilmişdir. Bununla əlaqədar olaraq Təhsil Nazirliyinə 49 nəfər müraciət etmiş, bunlardan 42 nəfəri imtahana buraxılmışdır. İmtahanda iştirak edən 39 nəfərdən isə 28 nəfəri müvafiq keçid balını keçərək ilk peşə-ixtisas təhsili müəssisələrində ixtisaslarına uyğun olaraq işlə təmin olunmuşlar. Bunlardan 21-i istehsalat təlimi ustası və 7 ixtisas fənn müəllimidirlər.

2011-ci ildə Avropa Komissiyası ilə birlikdə peşə təhsili sahəsində 2-ci bir layihənin həyata keçirilmsinə başlanmışdır. Belə ki, 2010-cu ilin avqustunda Avropa İttifaqına üzv ölkələr arasında “Kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı” layihəsi elan olunmuş və Almaniya Hökuməti layihədə əsas tərəfdaş ölkə kimi seçilmişdir.

**“Kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı”** layihəsi Avropa Qonşuluq Siyasətinin (AQS) 2008-ci il Milli Fəaliyyət Planı çərçivəsində Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və layihənin büdcəsi 1 200000 avrodur. 15 avqust 2011-ci ildə başlanmış layihənin 21 ay müddətində icra olunması nəzərdə tutulub. Layihənin ümumi məqsədi kənd təsərrüfatı sahəsi üzrə peşə-ixtisas təhsilli mütəxəssislərin hazırlanması işini dəstəkləməklə peşə məktəbləri məzunlarının iş tapmaq imkanlarını artırmaq və qeyri-neft sahələrində ölkənin rəqabətə davamlılığının gücləndirilməsinə töhfə verməkdir. Eyni zamanda layihədə ilk peşə ixtisas təhsili strategiyası çərçivəsində həyata keçirilən cari islahatların kənd təsərrüfatı sahəsində peşə təhsili və təlimini əhatə etməsi məqsədilə ilk peşə ixtisas təhsili qurumlarının və digər əlaqədar təşkilatların institusional potensialının gücləndirilməsi öz əksini tapıb.

“Kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı” layihəsi “Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)” sənədinə uyğun olaraq tərtib olunub.

Layihədə kənd təsərrüfatı sahəsinə aid ixtisas standartlarının və kurikulum nümunələrinin hazırlanması, müvafiq istiqamətdə bir və ya bir neçə peşə təhsili müəssisəsində pilot layihə həyata keçirilməsi, layihənin icrasını dəstəkləyənlər və bununla bağlı kurikulumları tərtib edənlər, peşə təhsili müəssisəsi rəhbərləri və müəllimlər üçün təlimlər keçirilməsi öz əksini tapıb.

Layihə çərçivəsində Almaniyaya təlim səfərlərinin təşkil edilməsi, seçiləcək pilot müəssisənin dövlət vəsaiti hesabına yenidən qurulması və təlim materiallarının hazırlanması, eyni zamanda işəgötürənlərin bu prosesdə fəaliyyətini yüksəltmək məqsədilə Koordinasiya Şurasının da yaradılması nəzərdə tutulub.

14 oktyabr 2011-ci il tarixində “Hilton otelində “Kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı” layihəsinə dair konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikası Təhsil naziri ilə yanaşı, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yüksək rütbəli şəxsləri, Almaniyanın Azərbaycandakı səfiri, Almaniya Parlamentinin nümayəndəsi və layihənin əsas icraçıları iştirak etmişdir.

Azərbaycanda peşə təhsili sahəsinə sərmayə qoyan beynəlxalq təşkilatlar siyahısına İslam İnkişaf Bankı da əlavə olunmuşdur. Aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikasında müasir tipli peşə təhsili müəssisəsinin tikintinisə qərar verilmişdir. Bununla əlaqədar olaraq şöbə tərəfindən müvafiq əsaslandırıcı sənədlər hazırlanıb, ingilis dilinət ərcümə olunaraq İslam İnkişaf Bankına təqdim eidlmişdir.

Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi “Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illə)” və “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqları ailələrə verilməsi (De-institutlaşdırma) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)” çərçivəsində hazırlanmış uşaq müəssisələrinin transformasiyası üzrə Baş plana əsasən Qusar internat məktəbinin tipinin dəyişdirilməsi və onun bazasında peşə liseyinin yaradılması nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq müvafiq qərar layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.

Cari ildə həmçinin özəl peşə təhsili müəssisələrinin yaradılması istiqamətində də müəyən addımar atılmışdır. Belə ki, artıq bir sıra təşkilatlar Təhsil Nazirliyinə müraciət edərək özəl peşə təhsili müəssisələrinin yaradılmasını təklif etmişdir. Bunlardan GRBS və DAİMONİ şirkətlərini misal göstərmək olar. GRBS təkilatı artıq müvafiq sənədləri hazırlamış və Təhsil Nazirliyinə

təqdim etmişdir. Növbəti tədris ilinə qədər bu təşkilatın nəzdində özəl peşə məktəbinin yaradılması nəzərdə tutulmuşdur. DAİMONİ şirkəti ilə isə birgə layihənin hazırlanması üzərində iş davam etdirilir.

2011-ci ildə şöbəyə 181 şikayət və ərizə daxil olmuşdur. Daxil olunan ərizələr aşağıdakı məzmunda olmuşdur:

| **Mövzu** | | **Say** |
|---|---|---|
| **İPTM-lərdən şikayət** | İPİTM rəhbərliyindən şikayət | 53 |
| | İPİTM-lərin fəaliyyətindən şikayət | 16 |
| **Müraciətlər** | Peşə liseyində təhsil almaq barədə müraciət | 37 |
| | Dublikat diplom, attestat alınması barədə | 26 |
| | İxtisas dəyişmə barədə | 6 |
| | Təhsili davam etdirilməsi barədə | 9 |
| | Təqaüdün verilməməsi barədə | 5 |
| | Peşə liseyinin dəyişdirilməsi barədə | 3 |
| | İşlə təmin olunma barədə | 3 |
| | Direktor müavini keçmək barədə | 2 |
| | Digər | 21 |
| **Cəmi** | | **181** |

2011-ci il ərzində şöbənin əməkdaşları peşə təhsili sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bir sıra seminar və treninqlərdə iştirak etmişlər.

- Texniki peşə təhsili şöbəsinin baş məsləhətçisi Z.Əhmədov 24-25 fevral 2011-ci il tarixlərində İtaliyanın Turin şəhərində keçirilən "Şərqi Avropada Ömürboyu Təhsil" mövzusunda seminarda;
- Texniki peşə təhsili şöbəsinin müdiri N.Məmmədov işçi qrupu ilə birlikdə peşə təhsili sahəsində Almaniyanın Baden-Vürtemberq torpağının təcrübəsini öyrənmək məqsədi ilə 13-16 mart 2011-ci il tarixlərində Almaniyanın Ştutqart şəhərində təlim səfərində;
- Texniki peşə təhsili şöbəsinin böyük məsləhətçisi N.Mahmudov Dünya Bankı ilə Azərbaycan Respublikası Əmək Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə həyata keçirdiyi Sosial Müdafiənin İnkişafı Layihəsi çərçivəsində İsveç Krallığı və Latviya Respublikasında 28 mart-9 aprel 2011-ci il tarixlərində keçirilən təlim səfərində;
- Texniki peşə təhsili şöbəsinin müdiri N.Məmmədov İtaliyanın Turin şəhərində keçirilən "Torino Prosesi: Toplanmış təcrübələrin öyrənilməsi" mövzusunda 9-12 may 2011-ci il tarixlərində keçirilən seminarda;
- Texniki peşə təhsili şöbəsinin böyük məsləhətçisi N.Mahmudov Sinqapur Əməkdaşlıq Proqramının Təlim Təqaüdü çərçivəsində 1-7 iyun 2011-ci il tarixlərində "Texniki-peşə təhsili və təlimində akademik idarəetmə və təhsil konsepsiyaları" mövzusunda keçirilən təlim kursunda;
- Texniki peşə təhsili şöbəsinin baş məsləhətçisi İ.Nadirov 16-20 iyul 2011-ci il tarixlərində Tehranda keçirilən İslam Konfransı Təşkilatının Peşə təhsili və təlimi proqramı üzrə Monitorinq və Məşvərət Komitəsinin III iclasında;
- Texniki peşə təhsili şöbəsinin müdiri N.Məmmədov 6-7 oktyabr 2011-ci il tarixlərində Brüsseldə "İxtisas çərçivəsi: nəzəriyyədən tətbiqə" mövzusunda keçirilən konfransda;

Bununla yanaşı, ilk peşə-ixtisas təhsili sahəsində bir sıra problemlərin hələ də həll olunmaması nəzərə alınmalıdır. Bunlar əsasən aşağıdakılardır:

- Dövlət proqramının icrası üçün nəzərdə tutulan vəsaitin ayrılmaması ilə əlaqədar olaraq 2011-ci il üçün əsaslı təmir edilməsi nəzərdə tutulan heç bir peşə təhsili müəssisəsi təmir edilməmişdir;
- Hələ də respublikada fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili müəssisələrinin tədris binalarında, emalatxanalarında, yataqxanalarında təqribən 15 minə yaxın məcburi köçkün məskunlaşmışdır;
- Bir sıra ixtisaslar üzrə orta ixtisas və ali təhsil müəssisələrində kadr hazırlığının həyata keçirilməməsi səbəbindən ilk peşə-ixtisas təhsili müəssisələrində kadr çatışmazlığı vardır;
- İlk peşə-ixtisas təhsili müəssisələrinin maliyyə-təsərrüfat müstəqilliyinin olmaması səbəbindən büdcədənkənar vəsaitlərin əldə edilməsi və xərclənməsi istiqamətində problemlərin olması;
- Mühəndis-pedaqoji heyətin maddi stimullaşdırılması üçün məhdud resursların olması ixtisaslı, peşəkar kadrların cəlb edilməsi istiqamətində çətinliyin mövcud olması;
- Əksər peşə təhsili müəssisələrində istifadə edilən əyani və texniki vəsaitlərin mənəvi və fiziki cəhətdən köhnəlməsi səbəbindən onlardan səmərəli istifadə etmək çətinliyinin mövcud olması;
- İqtisadi zonalar üzrə əmək bazarının tələbatlarının öyrənilməsi və müvafiq ixtisaslar üzrə peşə və təlim standartlarının yaradılmasına olan ehtiyac;

Bununla yanaşı, növbəti tədris ili qarşısında ilk peşə-ixtisas təhsili sahəsində aşağıdakı əsas prioritet inkişaf istiqamətləri müəyyən edilmişdir:

- İlk peşə-ixtisas təhsili müəssisələrinə təhsilalanların sənədlərinin qəbulu ilə əlaqədar olaraq elektron qeydiyyat formasının yaradılması;
- İlk peşə-ixtisas təhsili sahəsi üçün yeni dərslik və dərs vəsaitlərinin hazırlanması işinin davam etdirilməsi;
- Torino proseslərinə qoşulmaq üçün ilkin qiymətləndirmənin aparılması;
- Əmək bazarının tələbatının öyrənilməsi işinin davam etdirilməsi;
- Təsdiq edilmiş klassifikatora əsasən yeni peşə kurikulumlarının hazırlanması;
- Yeni kurikulumların tələblərinə əsasən mühəndis-pedaqoji heyətin hazırlanması və kurikulumların icrasının təmin edilməsi;
- İlk peşə-ixtisas təhsili müəssisələrinin mühəndis-pedqoji heyətə olan tələbatının müəyyənləşdirilməsi;
- İşəgötürən təşkilatlarla əlaqələrin genişləndirilməsi və onların kadr hazırlığı prosesinə fəal cəlb edilməsinin təmin edilməsi;
- Mühəndis-pedaqoji heyətin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə dövlət və qeyri-dövlət təşkilatlarının, sahibkarların tabeliyində olan istehsal və xidmət müəssisələrində təcrübə keçməsi üçün əlavə imkanların yaradılması;
- Respublikada fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili müəssisələrinin beynəlxalq əlaqələrinin genişlənməsinin dəstəklənməsi;
- Peşə təhsilinin əhatə dairəsinin genişlənməsi, iş və təhsildən ayrılmamaqla peşə təhsili əldə etmək imkanının artırılması məqsədilə “Elektron peşə təhsili” lahiyəsinin davam etdirilməsi.